## Azərbaycan dilində yeni magistr proqramı

# Dövlət İdarəetməsi



Müddət: **18 ay**; Format: **Qazaxda və Bakıda modullarla və onlayn tədris**

18 ay ərzində modullarla tədris olunan yeni magistr proqramı dövlət qurumlarında işləyənlər üçün öz biliklərini genişləndirmək imkanıdır. Bu proqram ictimai, siyasi, sosial və iqtisadi mövzularda fənləri əhatə etməklə dövlət idarəetməsində çalışanlar üçün lazım olan hərtərəfli bilikləri qazandırır.

Proqramda tədris 11 modul və modullar arası onlayn dərslər vasitəsilə aparılır. Hər modul 9 günlükdür və ADA Universitetinin Qazax Mərkəzində keçirilir. 11-ci modul 3 gün olmaqla, Bakıda ADA Universitetinin kampusunda keçirilir və yekun layihəyə hazırlıq məqsədi daşıyır. Tədrisin ilk ilində tələbələrə mütəmadi olaraq onlayn ingilis dili dərsləri də keçirilir.

| Modul | Dərsin adı | Modulun tarixi | Modulun yeri |
|---|---|---|---|
| 1 | İdarəetmə iqtisadiyyatı | 26 avqust- 3 sentyabr, 2023 | Qazax |
| 2 | Dövlət idarəetməsi | 30 sentyabr- 8 oktyabr, 2023 | Qazax |
| 3 | Tədqiqat metodları və məlumatların toplanması | 4-12 noyabr, 2023 | Qazax |
| 4 | Data analitikası | 16-24 dekabr, 2023 | Qazax |
| 5 | İctimai təşkilatlarda büdcə və maliyyə | 21-28 yanvar, 2024 | Qazax |
| 6 | Layihələrin idarə olunması | 17-25 fevral, 2024 | Qazax |
| 7 | İctimai hüquq | 16-24 mart, 2024 | Qazax |
| 8 | Yerli iqtisadi inkişaf | 13-21 aprel, 2024 | Qazax |
| 9 | İnsan resurslarının idarə edilməsi | 11-19 may, 2024 | Qazax |
| 10 | Dövlət qulluqçuları üçün kommunikasiya | 8-16 iyun, 2024 | Qazax |
| | Dövlət qurumları üçün ingilis dili | Onlayn | Onlayn |
| 11 | Dövlət siyasəti və strategiya- Yekun layihə | 5-8 sentyabr, 2024 | Bakı |

## Qəbul üçün minimal tələblər

- Dövlət qurumunda işləmək (və ya keçmişdə ən azı 2 il belə iş təcrübəsinin olması)
- DİM tərəfindən keçirilən qəbul imtahanlarında minimum 45 bal

## Tələb olunan sənədlər

- ADA Universitetinin elektron ərizə forması: www.ada.edu.az/apply
- Elektron ərizəyə əlavələr:
  - Bu proqrama müraciət səbəbləriniz və gələcək karyera planlarınızı ifadə edən 300-500 sözlük inşa
  - Bakalavr diplomu və diploma əlavə
  - Şəxsiyyət vəsiqəsi
  - CV
  - Fotoşəkil

ADA UNİVERSİTET • UNIVERSITY

**Müraciət tarixləri**

*Birinci mərhələ üçün son müraciət tarixi:* ***1 aprel, 2023***
*İkinci mərhələ üçün son müraciət tarixi:* ***1 iyun, 2023***